**PAŞA YAQUB**

# AUTİZMƏ

***belə qalib gələk***

**Bakı - 2020**

Redaktor: **Nazim Tapdıqoğlu (*Vəlişov*)**

*tədqiqatçı, tarixçı, şair, "Qızıl Qələm" mükafatı laureatı*

**Paşa Yaqub: "Autizmə belə qalib gələk"**

*Tanınmış psixoterapevt Paşa Yaqub 36 kitabın (o cümlədən 5 ensiklopediyanın), tibbi mövzuda yüzlərlə məqalənin müəllifidir. Əlinizdəki kitabda müəllif autizm sindromunun yaranma səbəblərini araşdırır və özünə məxsus olan müalicə metodlarını izah edir.*

*Kitab autizm sindromlu uşaqların valideynləri, hamilə qadınlar, həkimlər, psixoloqlar və digər kateqoriyadan olan oxucular üçün nəzərdə tutulub.*

© "Zərdabi LTD" MMC, 2020

# REDAKTORDAN

Mən bu kitabın müəllifini uzun illərdir ki, tanıyıram və tanıdığım üçün deyə bilərəm ki, onun əsərləri ilə şəxsiyyəti vəhdət təşkil edir. Onun bir neçə kitabının məsləhətçisi, redaktoru və ön söz müəllifi də olmuşam. Bəri başdan qeyd etmək istərdim ki, ictimai fəal olan, cəmiyyətdə baş verən sosial hadisələrə biganə qalmayan bu adamda öncəduyumluq xüsusiyyətləri də vardır. Qəribə xarakterə malik olan bu insanın yazdıqları özünün təbiətindən, ruhundan doğulduğu üçün həmişə oxucular tərəfindən səmimi qarşılanır. Ümumiyyətlə, onun düşüncələri və bu düşüncələrin məhsulu olan əsərləri halallıq, vətənpərvərlik, əməksevərlik, səmimilik üzərində köklənmişdir. Bu mənada tanınmış araşdırıcı, psixoterapevt, elmi-lədun bilicisi, fəal ictimaiyyətçi Paşa Yaqub öz oxucularını da bu dəyərlər üzərində kökləməyi bacarır. Ulu Yaradana şükranlıq, həyata bağlılıq onun yaradıcılığının canıdır desəm, bəlkə də səhv etmərəm. O, adətən görüb-bildiyi, tanıdığı adamları, nəsilləri tərənnüm edir, əsərlərində, kitablarında onların bir növ obrazlarını yaradır.

Yazılarında forma zənginliyi olduğu kimi, bəzən özü də bu yazılarda özünəməxsus forma nümunələrini yaradır. Onun yazdıqlarında canlı,

poetik bir ruh hiss olunur. Müxtəlif mövzularda yüzlərlə məqalənin, oçerkin, neçə-neçə ensiklopedik dərginin, ümumilikdə 34 kitabın müəllifi olan Paşa Yaqub həm də tanınmış psixoterapevtdir. Onun bir psixoterapevt kimi insanlara şəfa verən özünəməxsus müalicə metodları vardır. Onlarla xəstə insan Paşa Yaqubun müalicəsi sayəsində sağalaraq həyata yenidən vəsiqə almışdır. Budur, indi də müəllif oxucuları ilə növbəti görüşə "*Autizmə belə qalib gələk*" kitabı ilə gəlir.

Məlumdur ki, ***autizm*** sözü yunanca ***autos*** sözündən olub, "*öz və ya özü*" anlamını ifadə edir. ***Autizm*** insanda erkən yaşdan başlayan, ömür boyu davam edən, məhdud və təkrarlanan davranışlara gətirib çıxaran, beyinin inkişafına maneə yaradan ağır bir xəstəlikdir. Sadalanan bu əlamətlər autizmi *Asperger sindromu* kimi yüngül görünən autistik spektrum pozuqluğundan ayırır. İrsi mənşəli olan ***autizm xəstəliyi*** bəzi hallarda doğum şikəstliklərinə səbəb olan faktorlarla əlaqəli olur. Onun bəzi hallarda uşaqlıqda edilən peyvəndlərdən qaynaqlanması səbəbini təsdiqləyən elmi dəlillər demək olar ki, yox dərəcəsindədir.

***Autizm*** termini ilk dəfə 1938-ci ildə Vyana Universiteti xəstəxanasından *Hans Asperger* tərəfindən uşaq psixologiyası üzərində apardığı almanca bir dərsdə Bleurelin "*autistik psixopatlar*" terminologiyası əsasında "müasirləşmişdir". Asperger hazırda ***Asperger sindromu*** kimi tanınan

bir ASP növünü araşdırırdı; amma bu sindrom müxtəlif səbəblərə görə 1981-ci ilə qədər ayrıca bir diaqnoz kimi tanınmışdır...

1943-cü ildə Leo Kanner davranışları ilə təəccüb doğuran 11 uşaq haqqında yazdığı məlum hesabatında ilk olaraq erkən ***infantil autizm*** terminini işlətmişdir.

1960-cı ilin sonlarından başlayaraq autizmin həyat boyu sürdüyünü, zəka geriliyini, şizofreniya və digər inkişaf pozğunluqlarından fərqini və valideynləri aktiv müalicə proqramlarına həvəsləndirmələrin gətirdiyi faydaları göstərərək ayrıca bir sindrom olduğu qəbul edilmişdir.

Autizmin yaranması həm irsi, həm də ki, doğuşdan əvvəlki, doğuş zamanı və ya hamiləlik zamanı baş verən narahatlıqlar, o cümlədən uşaqlıqda edilən peyvəndlərlə əlaqədar ola bilər. Əgər hal-hazırda doğulan hər min körpədən 55-i (*bu, az qala hər doğulan 20-ci uşaq deməkdir*) bu sindromdan əziyyət çəkirsə, deməli bu xəstəlik çox ciddi, bəşəriyyəti düşündürəsi bir problem məsələdir. Qeyd etmək lazımdır ki, hazırda Azərbaycan cəmiyyətində ***autizm*** haqqında yetəriqədər məlumatlar yoxdur. Əslində bu, müəyyən mənada böyük narahatlıqlar doğurur. *Autizm sindromu* olan uşağa təkcə psixoloq və ya loqoped diaqnoz qoya bilməz. Bu xəstəliyə düçar olan uşaqlar vaxtaşırı həm də psixoterapevt və psixonevroloq dəstəyi almalıdırlar. Hələlik bu vaxta qədər autizmin çarəsi tapılmayıbdır. Elə bu

səbəbdən də sindromun konkret dərmanı yoxdur. Hətta bu sindromun çarəsini tapacaq şəxsə Nobel mükafatı da vəd olunmuşdur...

Qarşınızdakı bu kitabda tanınmış araşdırıcı, psixoterapevt Paşa Yaqub insanda *autizm* sindromunun yaranma səbəblərini aydınlaşdırır. Maraqlısı budur ki, müəllif kitabda autizmin müalicə metodlarını özünəməxsus şəkildə izah edir. Oxucu ***autizm*** ilə bağlı bir çox məqamları özündə işıqlandıran bu kitabda maraqlı fikir və ideyalar, müalicə üsulları və s. ilə rastlaşır.

Paşa Yaqubu oxucuların, onu tanıyanların gözündə ucaldan onun ciddi araşdırmaları, səmimiliyi, öz peşəsinə olan sevgisidir. O, halal, saf, səmimi bir insan olduğu üçün yazılarında da halallığa, saflığa, səmimiliyə çağırış təbii səslənir. ***Autizm*** sindromlu uşaqların valideynləri, hamilə qadınlar, həkimlər, psixoloqlar və digər kateqoriyadan olan oxucular üçün nəzərdə tutulan bu kitab ümidvaram kimi oxucular tərəfindən rəğbətlə qarşılanacaq və cəmiyyətimizdə öz layiqli qiymətini alacaqdır.

**Nazim Tapdıqoğlu (*Vəlişov*)**

*tədqiqatçı, tarixçı, pedaqoq, şair, "Qızıl Qələm" mükafatı laureatı*

# Autizm sindromunun yaranma səbəbi

***Autizm*** – erkən yaş dövründə başlayan, sosial münasibətlər və ünsiyyət sferasında problemlərin olması ilə özünü göstərən ümumi inkişaf problemidir. Autizmin əlamətləri əsasən iki yaşdan sonra özünü göstərməyə başlayır. Bu əlamətlər əsasən özünə qapanma, real həyatdan uzaqlaşma və s. kimi təzahür edir.

XX əsrin 80-ci illərindən sonra autizm sindromu ilə doğulan uşaqların sayında kəskin artım müşahidə edilməkdədir. Təxmini hesablamalara görə hazırda doğulan hər min körpədən 55-i bu sindromdan əziyyət çəkir.

Son dövrlər psixoloq olaraq autizim sindromlu uşaqların anaları arasında apardığımız test sorğuları bir çox heyrətamiz faktları ortaya qoymuşdur. Həmin faktlar bu sindromun yaranma səbəblərini tapmaqda bizə yardımçı oldu.

Test sorğularından aydın olur ki,  autizimdən əziyyət çəkən uşaqların analarında  bir qayda olaraq  hamiləlik dövründə eyni əlamətlər müşahidə olunub:  yuxuda diksinmə, qorxu, stress, boğulma, halusinasiya (*qarabasma*), qorxulu yuxular görmə, ürək döyüntüləri və s.

Bütün bunlar beyində sabitliyin pozulmasının əlamətləridir ki, autizm sindromlu uşaqlar  hələ ana bətnində olarkən, analarda bu əlamətlər müşahidə olunub.

Ən maraqlısı da odur ki, həmin uşaqlar doğulduqdan sonra anaların bir çoxunda bu əlamətlər ya azalıb, ya da bir daha baş verməyib. Bu da onu göstərir ki, həmin əlamətlər doğuş zamanı anadan uşağa keçməklə, autizm sindromunun  yaranmasına səbəb olub.

Oxucuda sual yaranacaq ki, analarda müşahidə olunan bu problemlər nəyin nəticəsidir və onları necə aradan qaldırmaq olar?

Bunu izah etmək üçün,fizikanın qanunlarına müraciət edək (*Kainat fizikanın qanunları ilə idarə olunur*):

Bildiyimiz kimi, fizikada iki cür – dəyişən (*qalxıb-enən*) və sabit (*düzxətli*) cərəyan mövcuddur.  Bu hal enerji (*ruh*) daşıyıcısı olan insanda da

mövcuddur. İnsanın enerjisi nə qədər ki sabitdir, onda heç bir xəstəlik baş vermir. Bəzən neqativ təsirlər nəticəsində insanın sabit enerjisi "dəyişən cərəyan" formasına keçir. Yəni, onda tez-tez hal dəyişiklikləri, qorxular, diksinmələr, boğulma, pis yuxulardan əziyyət çəkmə, halusinasiya halları baş verir. Bu hallar insanın beyin damarında baş verən sıxılma ilə əlaqədardır ki, bu da getdikcə həmin damarın qurumasına doğru gedir. Nəticədə həmin damar insanın hansı daxili orqanı ilə əlaqəlidirsə, o orqanda funksional pozğunluq baş verir. Qeyd edim ki, istənilən xəstəliyin (*o cümlədən, **autizm** sindromunun*) insanda yaranma prosesi bu cür baş verir...

Autizmli uşaqların anaları arasında apardığımız test sorğularından aydın olur ki, həmin analar bu uşaqlara hamilə olarkən, orqanizmlərində sabitliyin pozulması halları müşahidə edilsə də, onlar bunun mahiyyətini bilmədiklərindən yaşadığı narahatçılıqlara məhəl qoymayıblar.

Nəticədə ananın beynində başlayan həmin proses (*kapillyar damarların daralması və qurumağa başlaması*) bətnindəki uşağın da beynində eyni qaydada baş verir...

Uşaq doğulduqdan sonra körpədə beyin damarlarının sıxılması, yaxud quruması, əqli inkişaf-

dan qalma kimi əlamətlər müşahidə edilir ki, bunun da adına ***autizm*** deyilir.

Apardığımız psixoloji araşdırmalar bu xəstəliyin səbəbini aşkar etdiyi kimi, müalicəsinin mümkünlüyünü də ortaya qoyur...

## Autizmin müalicəsi mümkündür

Əvvəlcə onu bildirim ki, bizim tətbiq etdiyimiz müalicə metodunda ***autizm*** sindiromlu uşaqların müalicəsi anaları ilə bərabər aparılır. Bunun səbəbi sindromun adından məlumdur. Belə ki, ***autizm*** ANADANGƏLMƏ (*!*) problemdir. Deməli, məntiqlə problemin çözümü də mənbədən - yəni, anadan başlanmalıdır.

Autizmlə doğulan körpələrin analarını test edərkən aydın görmək olur ki, onlar uşaq doğulmamışdan xeyli əvvəl, bəzən hətta, qız vaxtından neqativ enerjinin təsirinə məruz qalırlar. Nəticədə onların orqanizmlərində sabitlik pozulur; diksinmə, qorxma, yersiz əsəbiləşmə halları başlanır. Ağır

hallarda qarabasmalar müşahidə olunur. Təəssüf ki, insanlarımız bu əlamətləri ciddiyə almırlar və bu da bir neçə ildən sonra müxtəlif xəstəliklərin yaranması, eləcə də autizim sindiromlu uşaqların doğulması ilə nəticələnir.

Müasir psixologiya və tibb elmi neqativ enerjini nəzərə almadıqlarından, onların tətbiq etdikləri müalicə metodları yalnız autizmli uşaqların özlərinə yönəlir. Bu səbəbdən də aparılan müalicələr bir çox hallarda nəticəsiz olur.

Sizə bir misal çəkim: tutaq ki, Mingəçevir SES-dən Bakıya gələn enerji xətti məsələn, Ağdaş rayonunda qırılıb. Bu vaxt Bakıda mənzilində işığı sönən biri, problemi çözmək üçün elektrik ustası çağırır. Usta əgər peşəkardırsa, elektrik qırığının Ağdaş rayonunda (*yaxud, başqa bir rayonda*) olduğunu aşkar edəcək və oradan xətti calayaraq, mənzildəki problemi həll edəcək. Yox əgər naşıdırsa, gəlib Bakıdakı mənzildə patronları qurdalamağa başlayacaq...

Psixoloqların və həkimlərin ***autizm*** sindromlu uşaqların valideynlərini bir kənara qoyub, yalnız uşağın üzərində işləməsini mən naşı elektrik ustasının patronla, yaxud lampa ilə uğraşmasına bənzədərdim (*hansı ki, xətt bizim nümunədə qeyd etdiyim kimi*, *Ağdaşda qırılıb*).

Enerji misalını təsədüfən çəkmədim. Bilməliyik ki, 220 (*!*) sümüyün birləşməsindən yaranan insan anatomiyası həm də enerji daşıyıcısıdır. Belə ki, ruh insana yerləşdirilmiş və onu enerji ilə təmin edən bir batareya funksiyasını yerinə yetirir.

Məişətdə işlətdiyimiz elektrik enerjisində müəyyən problemlər, kəsilmələr baş verdiyi kimi (*küləyin, yaxud dələduz insanın müdaxiləsi ilə enerji kəsilə bilir və s.*), orqanizmimizi enerji ilə təmin edən ruhumuza da bu cür kənar müdaxilələr ola bilir. Bu müdaxilələr kənardan neqativ enerji ötürməklə (*yönləndirməklə*) baş verir.

Bütün bu neqativ təsirlər və müdaxilələrin nəticəsində insan beynində sabitlik pozulur. Beyinin kapillyar damarları sıxılmağa və nəhayət, qurumağa başlayır. Bundan sonra insanda müxtəlif xəstəliklər baş qaldırır.

Bunu, virusun kompyuteri dondurması ilə müqayisə etmək olar. Yəni, kompyuterimizə düşən virus onu necə dondurub, fəaliyyətini dayandırırsa, insana yönləndirilən neqativ enerji də onun fəaliyyətini eləcə dondura və ya daxili orqanlarının, həmçinin, beyninin funksiyasını poza bilir...

Qadınlar (*qızlar*) daha həssas olduqlarından,

neqativ təsirə kişilərdən daha çox məruz qalırlar. Amma, bu sahədə bilgisiz olduqlarından, vaxtında tədbir görüb, bu enerjidən azad ola bilmirlər. Nəhayət, hamiləlik dövründə onlar bu neqativ enerjini bətnlərindəki övladlarına ötürürlər. Beləliklə, beyin damarları qurumuş (*yaxud fiziki qüsurlu*) övlad dünyaya gətirirlər ki, tibb elmi bu cür uşaqları "*autizm sindromlu*" uşaqlar adlandırır və müalicəsini mümkünsüz hesab edir.

Bir psixoloq və **elmi-lədun*** bilicisi olaraq apardığımız araşdırmalar bu sindromun ən azı 70-80 faiz (*körpə yaşda bilinərsə, 100 faiz*) aradan qaldırmağın mümkünlüyünü göstərir. Bir şərtlə ki, problemin çözümünə anadan başlanılsın. Çünki, yuxarıda qeyd etdiyimiz kimi, sindrom *anadangəlmə*dir. İlk növbədə ananın hamiləlik dövründə (*yaxud, ondan 10-15 il qabaq*) aldığı neqativ travma aradan qaldırılmalı və onun orqanizmindəki sabitlik bərpa olunmalıdır. Daha sonra problemli uşaq seans edilərək, onun neqativ enerjisi götürülməli və

* Elm zahiri və batini olmaqla, iki qrupa bölünür. Zahiri elmlər məktəbdə müəllimdən və kitabdan öyrənildiyi halda, batini elm əksinə, müəllimdən öyrənilmir. Buna ***elmi-lədun*** deyilir.
***Ladun*** sözü ərəbcə "*dərin qat*" mənasını verməklə, elmin dərin qatlarına işarədir. Bu, tək oxumaqla əldə edilə bilməyən, həm də qəlbə gələn duyumla (*hissiyyatla*) qazanılan bilgidir. Vaxtilə peyğəmbərlər və digər kəramət sahibləri bu cür elmə malik olublar və sirrlər üzərindən pərdələri məhz bu elmlə qaldırıblar.

sabitlik bərpa olunmalıdır. Bütün bu müalicə seansları fizikanın qanunlarına uyğun və elmin alt qatı (*elmi-lədun*) ilə həyata keçirilir.

Bəzən pasiyentlər sual verirlər ki, ananı müalicə etmədən autizmli  uşağı sağaltmaq olmazmı?

Olar; amma, bir şərtlə ki, müalicə aldıqdan sonra gərək uşaq ananın yanına qayıtmasın və onunla bir evdə yaşamasın. Çünki, təmizlənmiş uşaq neqativli ananın yanına gedən kimi, onda olan neqativi yenidən özünə çəkəcək və təkrar beynindəki sabitlik pozulacaq. Təcrübələrimiz göstərir ki, ***autizm*** sindromlu uşaqlar bu cür enerjiyə qarşı həssas olduqlarından, anada, atada, eləcə də bir evdə yaşadıqları ailə üzvlərində olan neqativləri maqnit kimi özlərinə çəkirlər və yüklənərək yenidən pozulurlar. Ona görə də bu cür xəstə uşaqların tək müalicəsi effekt vermir (*psixoloqlar bu sirri bilmədiklərindən, bir çox hallarda nəticə əldə edə bilmirlər*).

Onu da vurğulayaq ki, autizm sindromlu uşaqlar neqativdən  təmizləndikdən sonra valideynlərindən başqa heç kəsdən neqativi çəkmirlər. Bu da genetik rabitə ilə əlaqədardır.

Bilməliyik ki, bu cür uşaqların əsəbiliyi, aq-

ressiyası, qaranlıqdan qorxmaları, ürək döyüntüləri, diksinmələri, ... neqativ təsilərrin əlamətləridir ki, bir neçə seansla bu əlamətləri aradan qaldırmaq mümkündür.



## Körpənizin xəstə, yaxud sağlam doğulacağını bilmək istəyirsinizsə hamiləlik dövründə  bu əlamətlərə fikir verin

Son dövrlər ***autizm*** sindromundan əziyyət çəkən uşaqlar üzərində apardığımız uğurlu müalicə

seansları bu qənaətə gəlməyimizə əsas verir ki, doğulacaq körpənin autizm sindromundan əziyyət çəkib-çəkməyəcəyini hələ hamiləliyin ilkin dövründə təyin etmək mümkündür.

Belə ki, autizmli uşaqların anaları bir qayda olaraq etiraf edirlər ki, hamiləlik dövründə (*yaxud ondan əvvəlki dövrlərdə*) özlərində qorxu, diksinmə; baş, çiyin, onurğa ağrıları; ürək döyüntüləri, boğulma, qarabasma (*gözünə başqa varlıqların görünməsi*), qorxulu yuxular görmə, qərarsızlıq, əsəbilik; mədədə, analıq orqanlarında problemlər müşahidə ediblər... Qeyd edək ki, bütün bunlar neqativ təsirin əlamətləridir.

Təəssüf ki, müasir dövrdə insanlarımız bu əlamətlərin mahiyyətini lazımi qədər dərk etmirlər. Başqalarına da deməyə utanırlar ki, ətrafdakı insanlar onları dəli hesab edərlər (*kimsə deyəndə ki, gözümə qorxulu varlıqlar görünür, cahil insanlar gülürlər və bunun mümkün olmadığını deyirlər*). Onu da qeyd edək ki, qorxu, əsəb, stress və s. yuxarıdakı əlamətləri olan insanlarda beyin damarları sıxılmağa və tədricən qurumağa başlayır ki, bu da beyində və digər orqanlarda funksional pozğunluqla nəticələnir.

Bu əlamətlər  hamiləlik dövründə baş ver-

dikdə isə, bətndəki körpənin birbaşa beyin sisteminə təsir edir ki, nəticədə əqli qüsurları olan, beyni inkşafdan geri qalan (*autizm sindromlu, yaxud fiziki qüsurlu*) uşaqlar doğulur...

Yeri gəlmişkən, qeyd edək ki, bu gün cəmiyyətdə geniş şəkildə yayılan neqativ enerji tək autizmli uşaqların doğulmasına səbəb olmur; bu enerji həm də ailələrin sürətlə dağılmasına, uğursuzluqlara, evlərdə sirli yanğınlar baş verməsinə, xəstəliklərin artmasına və intiharların tüğyan etməsinə, ... səbəb olur.

Oxucuda sual yarana bilər ki, "*qara enerji*" indiki dövrdə niyə belə çox yayılıb? Neqativ enerjinin bu dərəcədə artmasına səbəb nədir?

Bu suala cavab olaraq bildirək ki, cəmiyyətdə neqativ enerji bütün dövrlərdə olub. Amma, əvvəllər bu dərəcədə deyildi. Bunun artması keçən əsrin 80-ci illərindən etibarən cəmiyyətdə magiya ilə məşğul olanların (*falçı və cadugərlərin*) hədsiz çoxalması və onların "xidmətindən" istifadə edənlərin artması ilə əlaqdardır. Vurğulamaq istəyirik ki, Fironun dövründən bəri sehrbazlığın (*cadugərliyin*) indiki qədər artdığı bir dövr olmayıb! Artıq dünyanın dörd bir tərəfində yaşayan insanlar – yüksək vəzifəlisindən tutmuş, sıravi vətəndaşına

qədər – bir iş görərkən ekstrasenslə (*yaxud falçı ilə*) məsləhətləşməyi, onların enerjisindən yararlanmağı özlərinə borc bilirlər. Düşünmürlər ki, bu kateqoriyadan olanların istifadə etdikləri enerji neqativ ("*qara*") enerjidir. Nəticədə öz əlləri ilə özlərini çətin duruma salırlar. Həmin enerji yüklənmiş əşya daim evə ağırlıq, uğursuzluq gətirir və xəstəliklərə, yuxarıda sadaladığım əlamətlərə səbəb olur...

Təcrübəmiz göstərir ki, bu cür neqativ əlamətləri insanlardan (*o cümlədən, hamilə qadınlardan*) ***efir enerjisi*** ilə çox asanlıqla yox etmək mümkündür. Bu əlamətlərdən xilas olan anadan heç vaxt ***autizm*** sindromlu (*yaxud, başqa problemli*) uşaq doğulmaz. Nədir efir enerjisi?

## "Efir" enerjisi bütün xəstəliklərin dərmanıdır

Mendeleyev sağ olarkən, onun tərtib etdiyi Elementlərin Dövri Sistemi Cədvəlinin orjinalında "Efir" adlı element mövcud idi. 1906 ci ildə nəşr olunan "Kimyanın əsasları" kitabına (*8-ci nəşr*)

Mendeleyevin əsl cədvəli salınmışdır (*bax: aşağıdakı cədvələ*). Kimyəvi işarəsi “X” olan bu elementi Mendeleyev öz cəvəlində “Nyutoniy” adlandırmışdır. Cədvəlin yuxarı sol küncündə yerləşən bu maddəni alimlər “Dünya efiri” adlandırırdılar. Cəvəldə “Efir”, “Hidrogen”dən əvvəl yazılmışdır və o, sıfır qrupuna, sıfır sırasına daxil edilmiş yeganə element idi. Atom çəkisi 0,4 olan bu element yer üzərində hər yerdə mövcuddur. Bu maddə əsl enerji daşıyıcısıdır. “Efir”in hissələri atomları, molekulları formalaşdırır, amma, kimyəvi reaksiyalarda iştirak etmir. Efir - maddənin bir hissəsidir (*belə deyək ki, ruhudur, enerjisidir*). Mendeleyevin vəfatindan (*1907*) sonra, “müəyyən qüvvələr” cədvəl üzərində dəyişiklik edib, “Efir” elementini oradan xaric ediblər və 0 qrupunu ləgv ediblər. Beləliklə də, bir çox sirləri qizlətmiş olublar. Ona görə də müasir cədvəldə “Efir” görsənmir. Çünkü 0 qrupu mövcud deyil. Bu cür saxtalaşdırma kimya, fizika, biologiya elmlərinin gələcək inkişafına zərbə vurmaqla, sivilizasiyanın tərəqqisini də dayandırır. Hazırda məktəblərdə və Ali təhsil müəssisələrində Mendeleyev cədvəli tamamlanmamış, yarımçıq tədris olunur.

**Подлинная, нефальсифицированная Таблица Д. И. Менделеева**
**«Периодическая система элементов по группам и рядам»**
**(Д. И. Менделеев. Основы химии. VIII издание, СПб., 1906 г.)**

| Ряды | группы элементов | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 0 | I | II | III | IV | V | VI | VII | VIII | | |
| 0 | Ньютоний | | | | | | | | | | |
| 1 | Короний | Водород **H** 1,008 | — | — | — | — | — | — | | | |
| 2 | Гелий **He** 4,0 | Литий **Li** 7,03 | Бериллий **Be** 9,1 | Бор **B** 11,0 | Углерод **C** 12,0 | Азот **N** 14,01 | Кислород **O** 16,00 | Фтор **F** 19,0 | | | |
| 3 | Неон **Ne** 19,9 | Натрий **Na** 23,05 | Магний **Mg** 24,36 | Алюминий **Al** 27,1 | Кремний **Si** 28,2 | Фосфор **P** 31,0 | Сера **S** 32,06 | Хлор **Cl** 35,45 | | | |
| 4 | Аргон **Ar** 38 | Калий **K** 39,15 | Кальций **Ca** 40,1 | Скандий **Sc** 44,1 | Титан **Ti** 48,1 | Ванадий **V** 51,2 | Хром **Cr** 52,1 | Марганец **Mn** 55,1 | Железо **Fe** 55,9 | Кобальт **Co** 59 | Никель **Ni** 59 |
| 5 | | Медь **Cu** 63,6 | Цинк **Zn** 65,4 | Галлий **Ga** 70,0 | Германий **Ge** 72,5 | Мышьяк **As** 75 | Селен **Se** 79,2 | Бром **Br** 79,95 | | | |
| 6 | Криптон **Kr** 81,8 | Рубидий **Rb** 85,5 | Стронций **Sr** 87,6 | Иттрий **Y** 89,0 | Цирконий **Zr** 90,6 | Ниобий **Nb** 94,0 | Молибден **Mo** 96,0 | — | Рутений **Ru** 101,7 | Родий **Rh** 103,0 | Палладий **Pd** 106,5 |
| 7 | | Серебро **Ag** 107,93 | Кадмий **Cd** 112,4 | Индий **In** 115,0 | Олово **Sn** 119,0 | Сурьма **Sb** 120,2 | Теллур **Te** 127 | Иод **I** 127 | | | |
| 8 | Ксенон **Xe** 128 | Цезий **Cs** 132,9 | Барий **Ba** 137,4 | Лантан **La** 138,9 | Церий **Ce** 140,2 | — | — | — | — | — | — |
| 9 | | — | — | — | — | — | — | — | | | |
| 10 | — | — | — | Иттербий **Yb** 173 | — | Тантал **Ta** 183 | Вольфрам **W** 184 | — | Осмий **Os** 191 | Иридий **Ir** 193 | Платина **Pt** 194,8 |
| 11 | | | | | | | | | | | |
| 12 | — | — | Радий **Ra** 225 | — | Торий **Th** 232,5 | — | Уран **U** 238,5 | | | | |

*1906-ci ildə nəşr olunan “Kimyanın əsasları” kitabının 8-ci nəşrində Mendeleyev cədvəli*

Böyük alim Nikola Tesla (*1856 – 1943*) “Efir”dən enerji alınmasının mümkünlüyünü sübut etdi. Alim bu elementin sirrini bilməklə, daimi işləyən mühərrik yaratdı. Daha sonra, enerjinin naqilsiz paylanmasını kəşf etdi.

Hal hazırda bu istiqamətdə aktiv müzakirələr gedir. Bu mühərrik alimlər tərəfindən bir cox ölkələrdə yenidən işlənib. Hətta, Rusiyada İAE bazasında və digər bazalarda keçirilən ekspermentlərdə “Efir” elementindən istifadə olunub. Yaponiyada yanacaqsız işləyən avtomobillərin istehsalına başlanacağı haqqında məlumat verilib. 2008-ci ildə yanacaqsız çalışan və enerjisini “Efir”dən alan motosikl nümayiş etdirilib. Maraqlıdır ki, yenə də hansısa qüvvələr bu texnologiyaların həyata keçməsinə imkan vermədilər.

Müasir təsəvvürdə “Efir” yuksək sıxlığa malik olan qaza bənzəyir. Elementin araşdırılmasına Rusiya alimi Vladimir Ocukovskiy də xeyli əmək sərf edib. O, texnika elmləri doktoru, Tsialkovski adana kosmik akademiyanın üzvü, Rusiya Akademiyasının fəxri üzvüdir. Sual yaranır: Bəs “Efir” elementi və onun faydaları niyə belə ciddi-cəhdlə bəşəriyyətdən gizlədilir? Məncə,

səbəb odur ki, bu element kainatın enerjisini, ruhunu təşkil edir. “Efir”in varlığını, onun sirrini bilmədən, kaninatın, yaradılışın dərki mümkünsüzdür...

Həmçinin, daimi işləyən mühərriklərin həyata tətbiq edilməsi enerji resurslarına nəzarət edən çevrələrin marağına uyğun deyildir...

Vacib bir məqamı da qeyd edək ki, Elementlərin Dövri Sistemindən “Efir”in çıxarılması kimya, fizika və biologiya elmlərinin inkişafının qarşısını aldığı kimi, eləcə də tibb elminə zərbə vurdu. Tibb elmi, adını çəkdiyim elmlərə bağlı olduğundan, onlar kimi, yarımçıq qaldı. Təcrübəmiz göstərir ki, “Efir” elementinin sirlərini dərindən bilməklə, bundan bir çox sağalmaz xəstəliklərin, o cümlədən autizmin müalicəsində istifadə etmək mümkündür. Necə ki, Nikola Tesla bu sirləri kəşf etməklə, daimi işləyən mühərriki, enerjinin naqilsiz ötürülməsini ixtira etmişdi...

Qeyd edək ki, bizim tətbiq etdiyimiz müalicə metodu da məhz bu sirlərə əsaslanır. İnsan bədənində toplanan və orqanların funksiyasını pozan, ağrılara, xəstəliklərə səbəb olan neqativ enerjini bədəndən məhz “Efir”in enerjisi ilə xaric etmək mümkündür. Bu sirlər tibb elminə məlum

olmadığından, bir çox xəstəliklər müalicəsiz hesab edilir. Hansı ki, belə “müalicəsiz” xəstəliklərin çoxunu “Efir”lə müalicə edib, sağaltmaq mümkündür...

Zaman keçdikcə insan oğlu dərk edəcək ki, “Efir”dən alınan enerji bütün xəstəliklərin dərmanıdır... Nəzərinizə çatdırım ki, bu element istənilən adamda vardır. Sadəcə, bunu müalicəyə tətbiq etmək üçün sirləri bilmək lazımdır. Biz bu sirlərə uzun araşdırmalardan, tədqiqatlardan sonra vaqif olduq. Elə bu səbəbdəndir ki, tibb elminin müalicəsiz hesab etdiyi bir çox xəstəlikləri heç bir dərman tətbiq etmədən, “Efir” enerjisi ilə müalicə edirik...

## Övladının yaraşıqlı və sağlam doğulmasını istəyən hamilə qadınlar bunları bilməlidirlər:

Eyni valideynlərdən yaranan uşaqlardan birinin yaraşıqlı, digərinin çirkin, yaxud, bir uşağın sağlam, digərinin xəstə olduğunu görməyə artıq adət etmişik. Bunun səbəbləri tarix boyu cəmiyyəti düşündürsə də, doğru-düzgün elmi izahı

tapılmayıb. Son vaxtlar ünvanıma bu mövzuda çoxsaylı suallar gəldiyini nəzərə alıb, bu istiqamətdə monitorinq aparmaq qərarına gəldim. Oxucular üçün maraqlı olacağını nəzərə alıb, monitorinqin nəticələrini diqqətinizə çatdırıram. Psixoterapevt olaraq, bu cür fərqli görünüşə malik uşaqların anaları arasında apardığım sorğular maraqlı bir mənzərəni ortaya qoydu. Məlum oldu ki, əgər qızlar sevib ailə qurublarsa və hamilə olarkən əsəb, stress qorxu keçirməyiblərsə, onların uşaqları göyçək, yaraşıqlı və sağlam doğulur. Yəni, uşaq qarşılıqlı məhəbbətdən yarananda və ana sağlam olanda, doğulan uşaq da yaraşıqlı və sağlam olur. Lakin, elə analar da var ki, qızlıq dövründə onların qəlbində sevgi hissi olmayıb (*yaxud çox zəif olub*), əsəb, stress, qorxu, depressiya keçirib; baş, onurğa, mədə və analıq orqanlarında ağrılar olub; Menstruasiya dövründə güclü sancılar olub və s.

Bu əlamətlərdən bir neçəsi olan qızlar ailə qurduqdan və hamilə qaldıqdan sonra, sadaladığım əlamətlər bir qayda olaraq daha da artıb. Nəticədə, doğulan uşaq digərlərinə nisbətən daha çirkin, əsəbi və yaxud autizmli olub. Elə ailələr də var ki, onlarda bir-iki övlad yaraşıqlı və sağlam doğulduqdan sonra, növbəti uşaq çirkin və xəstə doğulub. Test sorğularından məlum olur ki, əvvəlki

uşaqlara hamilə olarkən, ananın psixoloji və sağlamlıq durumu normal olsa da, sonrakı hamiləlik vaxtı ətraf mühitdən və insanlardan gələn neqativ enerjilər səbəbindən, onda əsəb və gərginlik artıb. Analıq orqanlarında sancılar, daxili orqanlarda ağrılar; qorxu, ümidsizlik, ... yaranıb. Depressiv vəziyyətə düşdüyündən, ana çox vaxt ağlayıb, ... Nəhayət, həmin gərgin hamiləlikdən doğulan uşaq, əvvəlkilərə nisbətən çirkin, əsəbi, bəzi ağır hallarda isə, əqli və fiziki qüsurlu doğulub.

İlk uşaqları nisbətən çirkin və əsəbi olan analar arasında apardığımız rəy sorğularından məlum olur ki, onlar sevərək ailə qurmayıblar; menstruasiya dövrləri həmişə sancılı, ağrılı və yaxud gecikmələrlə baş verib. Əks cinsə həvəsləri olmayıb. Buna görə də evlilik təkliflərinə həmişə "yox" deyiblər. Nəhayət, yaşları keçdikdən sonra, belə qızlar yaxın ətraflarının təzyiqi və təkidi ilə (*üzə düşərək*) namizədlərdən birinə "hə" deyiblər. Ailə qurduqdan sonra belə qızların  sıxıntıları daha da artır. Yuxarıda sadaladığım əlamətlər və xəstəliklərlə hamiləlik keçirərək, ilk övladlarını dünyaya gətirirlər. Bu cür çətin hamiləlik nəticəsində doğulan uşaq çirkin və yaxud, əsəbi olur. Bundan sonra analarda nisbətən yüngülləşmə baş verir. Sanki, içlərindəki ağrı-acını, gərginliyi

uşaqla bərabər kənara atırlar (*əslində uşağa keçirirlər*). Bundan sonra rahatlanan ana, ikinci, üçüncü dəfə hamilə qalarkən, bu dövrü nisbətən rahat və ağrısız keçirir. Nəticədə, növbəti doğulan uşaqlar əvvəlkinə nisbətən daha yaraşıqlı və əsəbləri daha sakit, zirək olurlar. Oxucuda sual yarana bilər ki, qızlarda və hamilə qadınlarda baş verən bütün bu depressiv hallar, həyəcan, fobya, ağrılar, sancılar nəyin nəticəsidir? Onlar nədən yaranır?

Bu suallara cavab olaraq bildirim ki, bütün bunlar ətraf mühitdən gələn neqativ enerjilərin təsirindən yaranır. Bu enerji əsasən insanın onurğasında toplanaraq osteoxondroza, yaxud, fəqərə yırtıqlarına səbəb olur. El arasında "duzlaşma" deyilən bu ağrılar onurğada skalyoz, kipoz da yarada bilir. Onurğada toplanan neqativ enerji əsəbə, baş ağrısına, miqrenə səbəb olmaqla yanaşı, beldə və qıçlarda güclü ağrılar yaradır. Ətraf mühitdən orqanizmə daxil olan neqativ enerjinin ikinci ən çox toplandığı orqan cinsiyyət orqanlarıdır. Bu halda həm kişidə, həm də qadında cinsi istəksizlik yaranır. Bu cür enerjilər qızların (*qadınların*) ən çox analıq orqanlarında toplanmaqla, menstruasiyanı pozur və güclü sancılara, ağrılara, bəzi hallarda yumurtalıqlarda kistaların, polikistozların, miomaların, ...

yaranmasına gətirib çıxarır. Belə qızlarda adətən cinsi istəksizlik müşahidə edilir.

Son nəticədə, yuxarıda qeyd etdiyim kimi, bu cür əlamətləri olan qızlar adətən evlilik təkliflərinə “yox” cavabı verirlər. Səbəb onların qəlbindən sevgi və inam hissinin (*oxu: faylının*) silinməsidir. Belə ki, kompyuterlərimizə düşən virus ondakı fayl və proqramları necə silirsə, insana daxil olan neqativ enerji də qəlblərdən sevgi və inam “faylını” elə silir. Bu proses orqanizmin müxtəlif nahiyələrində səbəbi bilinməyən ağrılarla müşahidə olunur. Nəticədə, belə qızlar ətrafdakıların təzyiqi ilə ailə qursalar da, onlardan doğulan uşaqlar başqalarına nisbətən çirkin, bəzi hallarda isə, autizmli olurlar. Sual yaranır: Neqativ təsirə niyə məhz zərif cinsin nümyanəndələri daha çox məruz qalırlar? Qeyd edək ki, neqativ enerji kişilərə də təsir edir. Lakin, qadın ruhu həssas və zərif olduğundan, onlara daha tez və güclü təsir göstərir. Qadınların daha çox neqativə yüklənməsinin digər səbəbi onların geyimləri və gözəllikləri ilə bağlıdır. Belə ki, zərif cinsin nümayəndələri daim geyim-kecimli və baxımlı olduqlarından, bəzi insanların (*hətta əks cinsin də*) gözündə olan Selen maddəsinin şüasına məruz qalırlar. Bu şüa, neqativ enerji şəklində qadınların bədəninə hopa və yuxarıda sadaladığımız fəsadları

törədə bilir.

Qadınların bu enerjiyə yoluxmasının digər səbəbi, cəmiyyətdə magiyanın geniş yayılması və insanların *(özəlliklə də qadınların*) biri-birlərinə qarşı bu qara enerjidən istifadə etmələridir ki, bu halda da yuxarıda sadaladığım fəsadlar baş verir... Araşdırmalarımız göstərir ki, neqativ enerji insana bir çox hallarda irsən keçir. Yəni, fiziki qanunlara uyğun olaraq, enerji heç vaxt itmir; birindən digərinə keçir.

Bir zamanlar valideynlərdə olan neqativ enerji, onlar öldükdən sonra, övladlarında davam etməyə başlayır (*bu, hazırda ən çox yayılmış haldır və aşağıda geniş bəhs edəcəyik*). Fikir versəniz, görərsiniz ki, hansı ailədə ki, ağır xəstəlikdən, intihardan dünyasını dəyişən varsa, çox keçmir ki, həmin ailənin digər üzvü də ağır xəstələnir. Bunun ilk əlamətləri həyəcanla, əsəblə, qorxulu yuxular görməklə başlayır, getdikcə (*qarşısı alınmadıqda*) ağır və sağalmaz xəstəliklərə səbəb olur.

Yuxarıda qeyd etdiyimiz kimi, neqativ enerji uşağa həm də ana bətnində olarkən yoluxur və uşq böyüdükcə özünü tədricən büruzə verməyə başlayır. Bəs bütün bunlardan necə xilas olmaq olar? Tibb elmi neqativ enerjiyə qarşı vasitə kəşf etməsə də, bizim tətbiq etdiyimiz seanslarla bu

qara enerjidən və onun yaratdığı fəsadlardan (*eləcə də autizmdən*) xilas olmaq mümkündür. Bütün bu neqativ əlamətlərdən xilas olan qızlarda məhəbbət hissi bərpa (*vostonovit*) olur və o, sevərək ailə qurur. Hamiləlik dövründə heç bir ağrı, depressiv hal keçirmir. Beləliklə də, doğulan uşaqlar daha yaraşıqlı, əsəbləri sakit və ağıllı olurlar. Onu da qeyd edək ki, bu müalicə metodunda heç bir dərman vasitəsindən istifadə edilmədiyinə görə, hamiləliyə heç bir əks-təsir göstərmir. Odur ki, hamiləlik dövründə də bu seansları qəbul etmək məsləhətdir. Belə olan təqdirdə doğulacaq körpələr də sağlam və yaraşıqlı olar.

**Paşa Yaqub,**
*psixoterapevt, elmi-lədun bilicisi*
Əlaqə tel.: +99450 375 30 97

# Kitabın içindəkilər

Redaktordan ........................................................... 3
Autizmin yaranma səbəbi .......................................7

Autizmin müalicəsi mümkündür ..............................10

Körpənizin xəstə, yaxud sağlam doğulacağını bilmək istəyirsinizsə, hamiləlik dövründə bu əlamətlərə fikir verin ...............................................................15

Efir enerjisi bütün xəstəliklərin dərmanıdır .............18
Övladının yaraşıqlı və sağlam doğulmasını istəyən hamilə qadınlar bunları bilməlidirlər .......................23

**Mətbəənin direktoru:** *Elman Qasımov*
**Dizayner:** *Mətanət Əliqızı*

Yığılama verilmişdir: 27. 05. 2020.
Çapa imzalanmışdır: 16.07.2020.
Formatı 84x108 1/16.
Həcmi 1 ç.v. Sifariş № 16. Tiraj 1000.

«Zərdabi LTD» MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel: (012) 514-73-73, mob. (050; 070) 344 76 01
e-poçtu: zerdabi_em@mail.ru

Müəllif ilə əlaqə telefonu: (050) 375 30 97